**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 94 (1462) 20 may - 22 may 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# AZƏRBAYCAN POEZİYASININ İSTİQLAL CARÇILARI

**(əvvəli ötən sayımızda)**

**Azərbaycanda istiqlal bir xəyal kimi tez gəlib keçdi. Vətənin başı üzərində qorxunc aprel küləkləri əsərək Şimalın soyuq ”səmumu” ilə ılıq, səmimi ürəklərə qənim kəsildi. 1920-ci ilin 28 aprel tarixində Azərbaycan Cümhuriyyəti torpaqları Qızıl Ordu tərəfindən işğal olundu. Milli Təhlükəsizlik Nazirliyinin arxivlərində bu dövrü diqqətlə araşdıran** rəmanının başlıca əlamətlərindən biri, bəlkə də birincisidir.”

Vətənin azadlıqı, isdiqlalı üçün səsini ucaldan şair:

**Vətən özümüzü dərk etməyimiz,**
**Daim fikrimizin yeniləşməsi,**
**Mənim nəfəsimlə, sənin əlində**
**Tarix qatarının, yeyinləşməsi:**

**...Alın paltarında nadan görəndə**
**Bir az addımını ləngidir Vətən,**
**Mərdlərin əliylə ağ ciyərlərin**
**Üzünə çırpılan sillədir Vətən**

hümanist və xəlqi poeziya kimi ədəbi və həmişə bizimlədir.”

Bir sozlə desek Xəlil Rza Ulutürkün, milli azadlıq və demokratiya uğrunda hərəkatin inkişafında tarixi xidmətləri böyükdür. Bu ziyalılardan biridə dahi şairimiz Bəxtiyar Vahabzadədir ki, o da 60-cı illərdən başlayan milli azadlıq hərəkatının fəallarından idi. Şair, dramaturq, ədəbiyyatşünas, Azərbaycan Yazıçılar birliyinin üzvü, Azərbaycan xalq şairi, filologiya elmləri sini tapmışdır.

”İkinci səs”, ”Vicdan”, ”Yollara iz düşür”, ”Fəryad”, ”Hara gedir bu dün-ya”, ”Özümüzü kəsən qılınc”, ”Cəzasız günah”, ”Dar agacı”, ”Rəqabət” (1960-2003) bu pyeslər Azərbaycan Dövlət Milli Dram tiatrında tamaşaya qo-yulmuşdu.

O, hələ 1958-ci ildə yazdıgı ”Gülüstan” poemasına görə ”millətçi” damğası vurularaq 1962-ci ildə Azərbaycan Dövlət Universitetindən xaric edilir. Poemada iki yerə parçakimi xalqın agrı- acılarını göstərən şeirlər şairin bu hadisəni əks etdirən dəyərli əsərləridir.

”Şəhidlər” şeirində

**Qatil gülləsinə qurban gedərkən,**
**Gözünü sabaha dikdi şəhidlər.**
**Üç rəngli bayragı öz qanlarıyla**
**Vətən göylərinə çəkdi şəhidlər.**

Bəxtiyar Vahabzadə bir vətəndaş kimi öz duygularını, millətinin bu acı anlarını şeirlərində əks etdirir, xalqı ilə bərabər ”qara yanvarı” yaşayır.

**akademik B.Nəbiyev mülahizələrinə obrazlı şəkildə yekun vuraraq yazır:**

”Cəlladlar öz qara əməllərini bir qayda olaraq gizlincə icra edir, xalq arasında böyük nüfuza malik olan görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərini xəlvətcə ilim-ilim itirirdilər”

XX əsrdə ”23 ayın”, ”azadlıqın”, ”istiqlalın” həsrətini çəkən Azərbaycan xalqı yeni Cavidlər, Cavadlar, Müşfiqlər, Hadilər, Üzeyirlər dünyaya gətirdi. Azərbaycan xalqı bitib tükənməyən sərvətinin sonsuzlugunu düşmənə bir daha sübut etdi. Bəxtiyar Vahabzadə, Xəlil Rza Uluturk kimi bir cox şairlərimiz xalqı əsrimizin sonlarında azadlıga səsləyən və bu azadlığı sonsuza qədər əldə etməyə nail olan sənətkarlarımız doguldu.

Milli istiqlalımızın poetik nəğməkarı, azadlıq və demokratiya uğrunda hərəkatın inkişafında tarixi xidmətləri olan ziyalılardan biridə xalq sairi Xəlil Rza Uluturkdur. Şair XX əsrin 50-ci illərində yaradıcılığa başlayıb, 60-70-ci illərdə bir sənətkar kimi püxtələşən İkinci Respublika dövrünün yasaq çərçivələrini parçalayıb əsərləri və ictimai fəaliyyətilə rejimə meydan oxuyan, 80-90-cı illərdə Azərbaycanın azadlığı və istiqlalı uğrunda mübarizəni öz yaradıcılıq və vətəndaş amalına çevirən görkəmli xalq şairimizdir. ”Böyük məsuliyyətlə və özünə qarşı amansız tələbkarlıqla hüdudlanan fasiləsiz idrakı axtarışlar və tapıntılar Xəlil Rza Uluturkün lirik qəh-





”Böyük sairimiz Bəxtiyar Vahabzadənin dediyi kimi: ”Xəlil Rzanın böyüklüyü ondadır ki, o doğma törpağının azadlığı, xalqının səadəti yolunda öz canından belə keçməyə hazır olan, son dərəcədə cəsarətli, qeyretli şair-vətəndaş idi. Onun zəngin və mərdanə poeziyası da məhz Vətən və xalq idealları ilə mayalandığı üçün əsrlər boyu ürəklərdə yaşayacaqdı.”

Xəlil Rza Ulutürk yaradıcılığında türkçülük, turançılıq, türk birliyi gücünü hər zaman ”Azadlıq meydanı”, ”Qalx ayağa, Azərbaycan”, ”Sən alçaqsan”, ”Boz qurda öygü”, ”Azərbaycan türkcəsi”, ”Türk” və s. şeirlərində tərənnüm etmişdir.

Əlizadə Əsgərlinin dediyi kimi: ”... Xəlil Rza Ulutürk poeziyası istiqlalçılıq, azərbaycançılıq, türkçülük, islamçılıq, şüur və məfurəsi ilə zəngin olan milli ideal və xalq taleyini daha ciddi əks etdirən doktoru, professor, Azərbaycan MEA-nin həqiqi üzvü, Azərbaycan Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət mükafatı lauratı, millət vəkili, ən önəmlisi də millətinin azadlıgı ugrunda qələmini süngiyə çe-virmiş Bəxtiyar Vahabzadə.

Yaşar Qarayevin dediyi kimi: ”Bəxtiyar Vahabzadə üçün ayrıca bir ”ta-rixilik” anlayışı yoxdu; ayrıca bir ənənəvi, milli xarakter; ayrıca bir müasir ”intelektual qəhrəman” yoxdur. Onun üçün yalnız eyni, vahid, yekparə varlıq-müqəddəs, ədəbi Azərbaycan vardır”.

1943-cü ildən ”Ana və şəkil” ilk şeirini çap etdirən şair dövrü mətbuatda, ardıcıl olaraq şeirləri, elimi məqalələri dərc olunur.

”Mənim dostlarım” ilk kitabında faşizmə qarşı mübarizədə qalib gəlmiş xal-qın duygu düşüncələrin əks etdirən lirik şeirləri bu kitabda öz əklanmış Azərbayca-nın tarixi faciəsini dilə gətirmiş şair, rus və fars imperiyasının pəncəsi altında uğrunda ədalətli mübarizəsinə qoşulmuşdu. Şair Sovet rejimində milli varlığı tapdanan, hər cür zülmə məruz qalan millətinin dərdini rəmzlər və müxtəlif ədəbi üsullarla ifadə etmiş, iri həcmli poema və pyeslərində öz xalqının dərdlərini dilə gətirmişdi. Sovet rejimi dövründə yazılan bu səpgili şeirlərini şair yalnız Sovet İttifaqı dağılandan sonra, ”Sandıqdan səslər” başlığı altında nəşr etdirir.

20 yanvar faciəsinə indiyədək cox əsərlər, məqalələr, şeirlər yazılıb. Lakin bu faciəyə yüksək səviyyədə həqiqi siyasi qiymətini öz qələmiylə Bəxtiyar Vahabzadə verib.

Şairin ”Şəhidlər” kitabında gedən ”Nə istəyir bu millət?”, ”Təzadlar içində”, ”Eşq olsun sizə”, ”Matəm mərasimi”, ”Xəcalət”, ”İlham-Fərizə”, ”İki gün sonra”, ”Şəhidlər”, ”Son”

Xalqın dərdinə şərik olan şair hər zaman millətin azadlığı, istiqllalı ugrunda qələmi ilə mübarizə aparmış, şeirlərində türk xalqının qani bahasına olsa belə hec vaxt məglub olmayacagini hər bir misrasında səsləndirir.

Çingiz Aytmatov dediyi kimi:”Dünyada ad çıxaran çox şair var. Qəzet və jurnalları vərəqlədikcə görürsən ki, əsl şair azdır. Tək-tənha qalanda da, bir neçə kəlmə ilə ”Həyat nədir?” sualına cavab axtaranda da yalnız sözü fikirdən, obrazlardan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir”.

Azərbaycan xalqı XX əsrin əvvəllərində 23 ayda qoruyub əldə saxlaya bilmədiyi azadlıgına, 1993- cü ildə Ulu öndərimiz Heydər Əliyevin güclü siyasəti və vətən ogullarının, şəhidlərimizin tokdüyü qanı bahasına yenidən qovuşdu. Bayragına, gerbinə, müstəqilliyinə sarılan millət bir daha sübut etdi ki, Azərbaycan Dövləti gec də olsa itirdiklərinə sahib çıxır.

Hadinin dediyi kimi:

”Əgər vətən azadlıq, istiqlaliyyət kimi müqəddəs nemətlərdən məhrum isə, onda bəs onun nəyi vardır?”

**XXI əsrdə Azərbaycan xalqı bir daha sübut etdi ki, onun ”azadlığı”,”istiqlaliyyəti” və ən düclü dövlətlər sirasında dayanacaq ”qüdrəti” vardır.**

***Göyərçin Abid qızı***